**UOT: 781.**

**Nərmin Abbaslı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: narminabbasli99@gmail.com**

# SEVDA İBRAHİMOVANIN FORTEPİANO YARADICILIĞININ ÜSLUB VƏ JANR XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Sevda İbrahimovanın yaradıcılığında pianonun təfsiri yüksək səviyyəli tərcüməni çatdırmaqdır. Pianonun texniki və bədii imkanlarını nümayiş etdirdi. O, musiqinin obrazını dəqiq təsvir etməyi bacarırdı. Teksturada muğam təfəkkürünün yaratdığı texniki üsullar, kiçik keçidlər və prinsiplər aydın şəkildə ifadə edilir. Onun fortepiano pyesləri gənc musiqiçi kadrların yetişməsində böyük rol oynamışdır.

**Açar sözlər**: Sevda İbrahimova, Sevda İbrahimovanın fortepiano yaradıcılığı.

Azərbaycan fortepiano musiqisində yaradıcılığı ilə seçilən +620 görkəmli bəstəkar, gözəl pianoçu və təcrübəli müəllim olan Sevda İbrahimovanın musiqi dünyasında rolu böyükdür. Sənəti haqqında danışarkən Sevda İbrahimovanın bu xüsusiyyətlərini səciyyələndirmək olar. O, istedadı, zəhmətkeşliyi, özünə qarşı tələbkarlığı ilə hər zaman hörmət qazanmışdır. Qara Qarayevin tələbəsi olduğu üçün özünü xoşbəxt hesab etmişdir. Azərbaycan musiqi mədəniyyətinin inkişafında dərin iz qoymuşdur. İfaçılıq cəhətdən inkişafında Mayor Rafaeloviç Brennerin rolu böyük olmuşdur. Bəstəkar-pianoçu, pedaqoq kimi yetişərkən yaradıcılıq nailəyyətləri qazanmışdır. Sevda xanım müəllimlərindən sənət sirlərini öyrənmişdir. Fortepiano musiqisinə böyük diqqətlə yanaşmışdır. Sevda İbrahimova Azərbaycan musiqisinin inkişafında göstərdiyi xidmətə görə Əməkdar incəsənət xadimi və Xalq artisti adına layiq görülmüşdür. Sevda xanımın yaradıcılıq yolu bir çox janrlarla – opera, kantata, instrumental və digər əsərlərlə zəngindir. Bəstəkarın yaradıcılığında geniş diapazonlu özünüifadə xüsusiyyətləri göstərilmişdir. Müxtəlif janrlarda yazılmış əsərlərdə mövzunun aktuallığı daha çox təşkil olunmuşdur. Müasir texnika vasitələrinin istifadəsi təsdiq olunmuşdur. Milli musiqi ənənələri geniş şəkildə tətbiq olunmuşdur.

Sevda İbrahimova musiqi sənətinə pianoçu kimi daxil olmuşdur. Milli fortepiano yaradıcılığının inkişafına təkan vermişdir. Sevda xanım bu xüsusiyyətini fortepiano üçün kiçik həcmli əsərləri və fortepiano üçün konsertləri ilə sübut etmişdir. Müəllifin yaradıcılığında məşhur olan bir sıra simfonik, kamera-instrumental, vokal əsərləri geniş ifadə vasitəsinə malik olduğunu təsdiq etmişdir. Sevda İbrahimova bəstəkarlıq ənənəsini yeni musiqi dili, intonasiya melodik çaları, fortepiano fakturasının zənginləşməsi, ifaçılıq texnikasının ətraflı istifadəsi yeni yaradıcılıq sintezi təşkil edir. Klassik və milli musiqi sintezi, yeni yaradıcı nəticələr maraq doğuraraq diqqəti cəlb edib. Bəstəkarın yaradıcılığında bir sıra tapıntılar orijinallığı ilə seçilir. Müəllifin yaradıcılığında musiqi obrazının idarəçilik xüsusiyyətləri melodik həllin təsvirində müəyyənləşdirilmişdir. Fortepiano konsertləri onun yaradıcılığının əsasını təşkil edir. Novator ideyalarının həyata keçirilməsində əsas rol oynamışdır. İfaçılıq sahəsində milli musiqinin inkişafı baxımından aktuallıq kəsb edir. Sevda İbrahimovanın yaradıcılığı çox məhdud şəkildə araşdırılmışdır. Konsertino əsəri intonasiya, avaz və rəqsvarilik xarakterilə uzlaşmışdır. Bu əsərin intonasiya quruluşunda aşıq musiqisinin ritmik nümunələri göstərilmişdir.

Sevda İbrahimova yaradıcılığında individual, özünəməxsus xüsusiyyətləri və musiqi elminin inkişafında oynadığı rolu müəyyən etməkdir. Fortepiano yaradıcılığında mövcud olan yenilikləri, tapıntıları və milli bəstəkarlığın inkişaf mərhələsini qiymətləndirməkdir.

1) Fortepiano ifaçılıq sənətinə milli musiqi zəminində ifa üslublarını gətirilməsi olmuşdur. Bu onun yaradıcılığında mühüm yer tutur. Buraya texniki mürəkkəblik xasdır;

2) Milli melizmatikanın klassik səslənməsi önəmlidir;

3) İmprovizə üsulların icra edilməsi;

4) Milli tərzdə akkordların ifa texnikası.

Sevda İbrahimovanın yaradıcılığında fortepiano ifaçılıq metodologiyası formalaşaraq müxtəlif texniki və tembr baxımından yeni ifa üslubu kimi qəbul edilmişdir. Ənənəlik və novatorluq, millilik və estetik zövq və estetik tərbiyə kateqoriyasında olur. Bəstəkarın fortepiano yaradıcılığında elementlərin istifadəsi, dərketmə üsulunun xarakterik cəhəti öz həllini tapmışdır. Fortepianoda improvizənin geniş imkanları, ifaçılıq vasitələri və milli ifaçılıq yenilikləri ciddi mövzuya çevirmişdir.

a) Musiqi ifadəsinin təsvir xarakteri;

b) Fortepiano əsərlərində harmoniklik yaratmasıdır;

c) Professional musiqidə xüsusi metodlara improvizli inkişaf;

d) Fortepiano konsert fakturasında akkord-harmoniya cəhəti;

e) Fortepiano konsertlərinin məzmun, forma quruluşu, ifaçılıq xüsusiyyəti;

Azərbaycan musiqi incəsənətinin parlaq nümayəndələrindən biri olan Sevda İbrahimova öz yaradıcılığı, pedaqoji və musiqi maariflənmə sahəsindəki fəaliyyəti ilə daim diqqət mərkəzində olmuşdur. Bəstəkarın musiqi dili xəlqiliyi, zamanla səslənən aktuallığı ilə seçilərək ənənə və müasirliyin vəhdəti üzərində qurulmuşdur. S.İbrahimova obraz və janr rəngarəngliyi ilə seçilən bir sıra operaların, instrumental və vokal əsərlərin, konsertlərin, kantata, mahnı və romansların, uşaqlar üçün mahnıların, kino musiqisinin müəllifidir. Dahi Qara Qarayevin bəstəkarlıq məktəbini keçmiş, əsərlərində milli üslub, Azərbaycan xalq musiqisi ənənələrinə istinad açıq şəkildə özünü büruzə verir.

S.İbrahimova bəstəkarlıqla yanaşı, həm də pianoçu kimi tanınmışdır. Məhz bu səbəbdən o, fortepiano aləti üçün daha çox əsər yaratmışdır. Bunlardan fortepiano və simfonik orkestr üçün 5 konsert, fortepiano və orkestr üçün "Poema", "Azərbaycan təranələri" pyeslər silsiləsi, müxtəlif dövrlərdə yaranan piano üçün pyeslər silsiləsi, "Məhəbbət işığı" və "Qəlbimin nuru" piano üçün silsilələrini, piano və violin üçün ansamblları, "Fantaziya", "Uşaq lövhələri", "Gənc pianoçuya" pyeslər silsilələrini (1994) və s. qeyd etmək mümkündür. Bir sıra əsərlərinin ilk ifaçısı da bəstəkar özü olmuşdur. Onun vokal əsərlərində fortepiano partiyalarının ifası da aiddir. Bəstəkarın diplom işi olan fortepiano ilə orkestr üçün yazılmış "Poema" (1964) əsəri onun ilk ciddi işi hesab olunur. Bu kompozisiyanı bir çoxları, eləcə də Qara Qarayev haqlı olaraq birhissəli konsert kimi qiymətləndirmişdilər. Adətən bəstəkarın yaradıcılığını tədqiq edərkən digər fortepiano əsərlərinin qaynaqlarını "Poema"da axtarırlar. Bundan başqa bəstəkarın fortepiano ilə orkestr üçün konsertinosunu, №1, №3, №4 və №5 birhissəli formada yazılmış konsert əsərlərini nümunə olaraq qeyd edə bilərik. Konsert əsərinin fortepiano ifasında kiçik sekunda harmonik xətt və aşıq musiqisinin ritmik quruluşu təqlid edilmişdir. Bəzi epizodlarda əsas mövzu obrazın mülayim xəttini aydın göstərir. Mövzu oxunaqlı və melanxolik xarakterdə yazılmışdır.

Fortepiano bəstəkarın sevimli musiqi aləti kimi bütün yaradıcılığı boyu onun diqqət mərkəzində olub. S.İbrahimova fortepiano ilə simfonik və kame-

ra orkestrləri üçün 3 konsert, “Konsertino”, “Etüdlər”, “Uşaq lövhələri”, “Əhval-ruhiyyə” (“Prelüdlər”) fortepiano əsərlərinin müəllifidir. Bəstəkar həmçinin çoxlu sayda sonetlərin (ümumiyyətlə, Azərbaycanda bu janrda işləyən ilk bəstəkar Sevda xanım olmuşdur), o cümlədən Adil Babayevin sözlərinə yazılmış “Getdin”, “Bir dəfə gəlirik bu dünyaya biz”, “Məhəbbət ürəyimdədir”, “Sənin səadətin” əsərlərinin müəllifidir. Bəstəkar milli musiqi nümunələrinə xas olan elementləri fortepiano yaradıcılığında aydın şəkildə göstərmişdir. “Məhəbbət işığı” adlı fortepiano silsiləsində bəstəkar özünün və yoldaşının adlarını əks edən anaqramlardan istifadə edir. Bu əsərlərdə kədər, lirika, dərin nisgil, işıqlı və ümidverən hisslərlə bərabər keçərək “kontrapunkt” yaradır.

S.İbrahimova bir ifaçı kimi fortepiano alətinin bütün texniki və bədii imkanlarına bələddir və bu səbəbdən onun yaradıcılığının bir hissəsini fortepiano musiqisi təşkil edir. Xüsusən biz onun fortepiano üçün “Poema”sını, “Konsertino”sunu (ilk ifaçı – M.Adıgözəlzadə), fortepiano üçün 5 konsertini, müxtəlif dövrlərdə yaranan pyesləri, silsilələri qeyd etməliyik. O, alətə bir sirdaş kimi yanaşıb, ən ülvi hisslərini bu bəstələrdə əks edib. Səmimilik və yüksək professionallıq onun yaradıcılıq kredosudur. Əsərlərinin obraz sahəsi də çox genişdir, bəstəkarın intonasiya düzümündə milli qaynaqlardan irəli gələn intonasiyalarla bərabər kəskin ritmlər, dinamik inkişaf, obraz tutuşdurmaları və dərin lirizm öz əksini tapır. Gəncliyə həsr olunmuş fortepiano konsertləri yüksək səviyyədə təşkil olunmuşdur. “Konsertino” əsərini fortepiano və simfonik orkestr üçün nümunə olaraq göstərmək olar. Müəllifin fərdi üslubu və fərdi musiqi dili əsər daxilində özünü büruzə verir. Musiqi fikrinin intonasiya quruluşunda olması fortepiano və orkestr arasında ardıcıllaşır. Üç nömrəli konsertində muğam kadrlarının improvizə xüsusiyyətləri daha aydın gözə çarpır.

Sevda xanımın parlaq melodik materiala, inandırıcı miniatür və nəql manerasına malik vokal əsəri sevgi haqqında kiçik bir povest, sədaqət haqqında monoloqdur. “Məhəbbət işığı” fortepiano silsiləsi onun yaradıcılığının obraz və məzmun hissəsini daha da açır. Fortepianonun texniki və bədii imkanlarına dərindən hakimdir. Alətinə qarşı ülvi hissləri sənətində büruzə vermişdir. Bəstəkarın əsərlərinin obraz sahəsi çox genişdir. Ritm, dinamik inkişaf, dərin lirizm, milli intonasiya Sevda İbrahimovanın yaradıcılığında öz əksini tapır. Fortepiano silsilələrindən “Əhvali-ruhiyyələr”, “Azərbaycan təranələri” , “Məhəbbət işığı” ən məşhur kompozisiyalarından biridir. “Əhvali-ruhiyyələr” silsiləsinin ilk ifa-

çısı Z.Adıgözəlzadə olmuşdur. Bəstəkarın bu əsəri Azərbaycan Musiqisi Antologiyasına daxil edilmişdir. "Necə sevməyim səni", "Sən məni yad et", "Sənin sədaqətin" və digər mahnıları, romansları da Sevda İbrahimovanın fortepiano yaradıcılığına daxildir. "Məhəbbət işığı" fortepiano silsiləsi 2006-2008-ci illər ərzində yazılmışdır. Bu məcmuə bir süjet üzərində birləşən 10 pyesdən ibarət olmuşdur. Bu əsərdə öz yoldaşına olan hörməti, məhəbbəti, birgə keçən günlərinin sevinci, sonda isə amansız ayrılığın kədəri əks etdirmişdir. Psixolojik məqamlar, lirik və fəlsəfi düşüncələr əsərlərdə göstərilir. Əsərlərdə musiqi obrazı dəqiq təsvir olunmuşdur.

"Məhəbbət işığı" silsiləsində birinci miniatür moderato tempindədir. Mövzunun inkişafı sərbəst quruluşa əsaslanır. Daha sonra isə kupletin motivlərindən istifadə edilir. Elementlərdən təkrar istifadə edərək fakturanı daha da zənginləşdirir. Registr diapazonundan, registr tutuşdurmalarından və oktava gəlişlərindən istifadə edilmişdir.

2-ci pyes nikbin, xəyalpərəst xarakter daşıyır. Lirik tərzli melodiya, həyatsevər duyğuları özündə əks etdirmişdir. Melodik intonasiya iki element əsasında yaradılmışdır.

3-cü pyes rəqsvari xarakterdə yazılmışdır. Qəlbin gözəlliyi, daxili hisslərin ovqatı təsvir edilmişdir. Bu pyesdə daxili inkişaf variantları, harmoniyanın yenilənməsi prinsipi obraz hesabına əldə edilir. Miniatür mürəkkəb üçhissəli formada yazılmışdır. İki bölmədən ibarətdir. İnkişaf ümumiliyi nəzərdə tutulur. Orta hissə dinamik xarakter daşıyır.

4-cü pyes lirik, qəmgin və oxunaqlı şəkildə səslənir. Fakturada bir neçə xətt göstərilir. Fiqurasiyalar fon kimi qəbul edilir. Orta hissədə intonasiya melodik xəttin daha da inkişaf etməsinə imkan yaradır. 5 və 6 nömrəli pyeslərdə intonasiya cizgiləri özünü büruzə verir. 6-cı pyes "Əlvida" adlanmışdır. Həmçinin sərbəst formada yazılıb. Moderato tempindədir və mövzu lakonik olsa da əsas obrazla bağlıdır. Xalq mahnılarına fərdi yanaşma prinsipindən istifadə etməklə ifadə imkanını artırmışdır.

7 nömrəli pyes "Sarı gəlin" xalq mahnısı əsasında yazılmış pyesdir. Kuplet və nəzarət bölmələrindən istifadə etmişdir. Tonal dəyişiklik ilə musiqi variantını inkişaf etdirmişdir. 8-ci pyes "Məhəbbət sönməzdir" adlanır. Bu pyes Sevda xanımın obrazı ilə bağlıdır. 9 nömrəli pyes naz, qəmzə, həzz və başqa duyğuları əks etdirmişdir. Bu pyes də sərbəst formada yazılıb. 10-cu pyes silsiləni bitirir.

Sanki məhəbbəti vəsf edən himn kimi göstərilib. Bəstəkar faktura özəlliklərini və bədii keyfiyyətlilik prinsipinə xüsusi diqqət yetirir. Fortepiano yaradıcılığında səmimiliyi, ali gözəlliyi əsər daxilində məntiqi şəkildə uzlaşdıra bilmişdir. Romantizm ənənələrini proqramlı musiqi sahəsində göstərmişdir.

"Azərbaycan təranələri" məcmuəsinin əsas məqsədi tembr boyalarını tapmaq, instrumental xüsusiyyətləri açıb göstərməkdir. Hər hansı bir əsərin ideya daxilində səs-effekt əlaqəsi ilə sintez çalışması əsasında milli musiqi elementlərinin qorunub saxlanılması nəzərdə tutulmuşdur.

**Ədəbiyyat siyahısı:**

1. Əliyeva İ. Kökdən gələn istedad. Sevda İbrahimova-75. //"Azərbaycan" qəzeti, 2014, 28 noyabr. 2. Əfəndiyeva İ. M. Sevda İbrahimovanın yaradıcılığında uşaq musiqisi. B. : 2002, 67s.

2. Hacıbəyov Ü. Ə. Azərbaycan xalq musiqisinin əsasları, B. : Yazıçı, 1985, 154 s.

3. Zalova Z. Sevda İbrahimovanın Fortepiano ilə simfonik orkestr üçün Konsertləri. / "Konservatoriya" jurnalı. 2017, №3, s. 95-99 URL:http://konservatoriya. az/?p=3098

4. Səfərova Z. Sevda İbrahimova haqqında düşündüklərim. Dəyərli bəstəkarımızın 70 illiyinə həsr olunan yaradıcılıq gecəsilə bağlı təəssüratlarım əsasında. // "525-ci qəzet". 2010, 27 fevral.

5. Yusifova H. Sevda İbrahimovanın kamera-instrumental əsərlərinin ifaçılıq xüsusiyyətləri. Sənətşün. n. al. dər. a. üçün dissertasiya. Bakı, 2008, 137 s.

6. Dadaşova L. Musiqi səltənətində bəstəkar Sevda İbrahimovanın müəllif konsertləri haqqında düşüncələr. // "Respublika" qəzeti, 2014, 24 Avqust URL:http://respublicanews. az/index. php/dig-r-x-b-rl-r/m-d-niyy-t/item/4604

7. Təhmirazqızı S. Tariximizin səs yaddaşından silinməyən "Sarı gəlin": [eyniadlı Azərbaycan xalq mahnısı haqqında] // "Mədəniyyət" qəzeti, 2012, 27 yanvar.

8. Azərbaycan xalq mahnısı "Əlində URL:https://sozmusiqi. wordpress. com/az/folksong/elinde sazın sazinqurbanı" qurbani/

9. Мамедова Л. Замечательный музыкант, чуткий пе удивительный человек // "Harmony" http://harmony. musigielektron jurnalı. дагог dunya. az/ rus/archivereader. asp?txtid=413&s=1&iss=21 11. Лупенко Е. А. «Цветной

слух» и URL: реальность или миф? // Экспериментальная психология, 2012, том 5, No 3, с. 32 https://psyjournals. ru/files/53991/exp_2012_n3_Lupenko. pdf 5243 URL:

**Нармин Аббаслы**

## СТИЛИСТИЧЕСКИЕ И ЖАНРОВЫЕ ОСОБЕННОСТИ ФОРТЕПИАННОГО ТВОРЧЕСТВА СЕВДЫ ИБРАГИМОВОЙ

**Резюме:** Интерпретация фортепиано в творчестве Севды Ибрагимовой заключается в том, чтобы передать высокий уровень перевода. Она продемонстрировала технические и художественные возможности фортепиано. Ей удалось точно изобразить образ музыки. В текстуре четко прописаны технические приемы, небольшие отрывки и принципы, созданные мугамным мышлением. Фортепианные пьесы сыграли важную роль в развитии молодых музыкантов.

**Ключевые слова**: Севда Ибрагимова, фортепианное творчество Севды Ибрагимовой.

**Nərmin Abbaslı**

## STYLISTIC AND GENRE FEATURES OF THE PIANO WORK OF SEVDA IBRAHIMOVA

**Summary:** The interpretation of the piano in Sevda Ibrahimova’s work is to convey a high level of interpretation. She demonstrated the technical and artistic capabilities of the piano. She was able to accurately describe the image of music. The texture clearly states the technical methods, small passages and principles created by mugham thinking. Piano works played an important role in the development of young musicians.

**Key words**: Sevda Ibrahimova, Sevda Ibrahimova’s piano work

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Sənətşünaslıq üzə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**